**Vergi sektorunda elektron xidmətlərin spektri genişləndirilir**

***Media Hüququ İnstitutunun eksperti Xalid Ağaliyev:***

- Təşkilatımız tərəfindən davamlı olaraq dövlət qurumlarının elektron xidmətlər sahəsində göstərdiyi xidmətlər, onların internet resurslarının informasiya açıqlığı səviyyəsi və digər parametrlər üzrə monitorinqlər aparılır. Bu cür monitorinqlərin məqsədi dövlət qurumlarının internet üzərindən məlumatları yaymaq vəzifəsini necə icra etməsinin gerçək durumunu öyrənmək, problemlərini müəyyənləşdirib hökumətin bilgi azadlığı yönündə dəyərlərinə yardımçı ola biləcək tövsiyələr hazırlamaq, medianı, vətəndaşları məlumat əldə etmək haqlarından davamlı yararlanmağa həvəsləndirməkdir. Yeri gəlmişkən, onu da qeyd edim ki, bir neçə ay əvvəl açıqladığımız hesabatda Vergilər Nazirliyinin internet saytı şəffaflıq göstəricilərinə görə dövlət orqanları arasında ən qabaqcıl sayt müəyyən olunub. Bu qurum digər dövlət orqanları ilə müqayisədə xeyli dolğun və informasiyalıdır. Vergi ödəyiciləri e-xidmətlərlə bağlı saytdan lazım olan bütün məlumatları əldə edə bilirlər.

Vergilər Nazirliyinin digər informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sahəsində də əhəmiyyətli irəliləyişlər əldə etdiyini bildirən X.Ağəliyevin fikrincə, vergi sektorunda həyata keçirilən islahatların, elektron xidmətlər spektrinin genişləndirilməsi sahəsində görülən işlərin əhəmiyyəti böyükdür: «Nazirliyin təqdim etdiyi elektron xidmətlər sahibkarlığın inkişafı baxımından ən mütərəqqi vasitələrdəndir. Müasir dövrdə elektron xidmətlərin üstünlükləri olduqca böyükdür. Bu istiqamətdə Vergilər Nazirliyinin həyata keçirdiyi yenilikləri yüksək qiymətləndirmək lazımdır. E-xidmətlərin iqtisadi idarəetmə sektorunda, şəffaflıqla yanaşı, açıqlıq, çeviklik, sürət, əlverişlilik, operativlik, fasiləsizlik, interaktivlik, qənaətlilik, miqyaslılıq kimi üstünlükləri vardır».